AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ

# SƏRƏNCAM

№ 51

Bakı şəhəri 23 yanvar 2018-ci il

“Magistr-2018” müsabiqəsi haqqında

AMEA-da magistratura təhsilini daha da təkmilləşdirmək, magistrantların elmi nailiyyətlərinin və yaradıcılıq potensialının artırılmasına dəstək vermək, təhsildə və elmdə yüksək nəticələr göstərən, intellekti və bacarığı ilə fərqlənən istedadlı gəncləri həvəsləndirmək məqsədilə:

1. 2018-ci ilin may-iyun aylarında AMEA-nın magistraturasında təhsil alan tələbələr arasında “Magistr-2018” müsabiqəsi keçirilsin.
2. Müsabiqədə AMEA-nın magistrantlarının iştirakı təmin edilsin.
3. Müsabiqənin yekununda ən yüksək nəticələr göstərmiş 3 magistrant mükafatlandırılsın.
4. Qaliblərin mükafatlandırılması onların hər birinə müvafiq diplom verilməklə aşağıdakı qaydada aparılsın:
   I yer – 1500 manat;
   II yer – 1000 manat;
   III yer – 500 manat.
5. AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinə (AMEA-nın müxbir üzvü Əminağa Sadıqov) və AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, “Magistr-2018” müsabiqəsinin keçirilməsi ilə bağlı məsələlər həll edilsin.
6. Sərəncamın icrasına nəzarət AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT